# Revolysija və Qultura



№ 1

## *BU NƏMRƏMIZDƏ DƏRÇ EDILMIŞ:*

*Səhifə*


| | | |
|---|---|---|
| **Azərbajçan aşьqlarь** | — Lenin . . . . . . . . . | 1 |
| **M. K. Ələkbərli** | — Sabir . . . . . . . . . | 2 |
| **A. Sihhət** | — Sabirin tərçymeji halь . . . . | 13 |
| **S. Şamilov** | — Bөjyk şair və revolysion satirik . | 16 |
| **M. Ə. Sabir** | — Tazijanələr . . . . . . . | 22 |
| » » | — Qləm jemə . . . . . . . . | 25 |
| » » | — Şamaxь . . . . . . . . . | 25 |
| » » | — Sijahətimdən bir nəbzə . . . | 26 |
| » » | — Oçaq . . . . . . . . . . | 26 |
| » » | — Fizulluq . . . . . . . . . | 72 |
| **Jaramaz** | — Ana nəsihəti . . . . . . . | 27 |
| **Qoçabəj** | — Əş'ar . . . . . . . . . | 27 |
| — — | — Sabirin jeni tapьlmьş məktubu . | 24 |
| — — | — Hop-hop namənin 1-çi capьnьn myqəddəməsi . . . . . . . . | 28 |
| — — | — Sabirin xəstələnməsi mynasiвətilə «Molla Nəsrəddin» zurnalьnьn etdiji myraçəətnamə . . . . . . . | 28 |
| **M. Myşiiq** | — Şen tejflər . . . . . . . . | 29 |
| **Ç. Xəndan** | — Sabir . . . . . . . . . | 32 |
| **J. Şirvan** | — Sabirin vətəni . . . . . . . | 33 |
| **Əb. Sadiq** | — Sabirin ailəsi . . . . . . . | 37 |
| **Ismail Həqqi** | — Bir xatirə . . . . . . . . | 39 |
| **H. Nəzərli** | — Sabir . . . . . . . . . . | 41 |
| **Rzaqulu Nəçəfov** | — Sabir və Iran revolysijasь . . . . | 53 |
| **Əziz Şərif** | — Sabir və «Molla Nəsrəddin» . . | 57 |



*Məs'ul redaqtor* ***M. K. Ələkbərli***
*Məs'ul katiв* ***Əв. Sadiq***


NƏZƏRƏ CARPAN SƏHVLƏRƏ DYZƏLIŞ

| Səhifə | Sytun | Sətr | Janlьş | Doqru |
|---|---|---|---|---|
| 26 | 2 | juq. 8 | ərin qojuв qaçanlarьn | ərin qojuв qacan |
| 34 | 1 | aşaq. 6 | øzynə çəlв etdi. | øzynə çəlв etmədi. |
| 63 | 2 | aşaq. 15 | Jetişməjilə dadьna | Jetişməjirlər dadьna |
| 64 | 2 | juq. 13 | kiвi itildir, | kiвi itilədir, |
| 68 | 1 | juq. 7 | Əliqulu Nəçəfov, Qləmgysar | Əliqulu Nəçəfov Qləmgysar |


25/229

Texredaqtor: **M. Mamedov**

Baş Mətвuat Mydirliji Myvəkkilliji № 189. Tiraz 5000. Şifariş № 25. Istehsalata verilmiş 13/I-37. Capa imzalanmьş 10/III-37. Cap listi 9. Kaqьz formatь 62/94[1]/8. Azərnəşr № 7. Azərnəşr mətвəəsində вasьldь. 26-lar adьna „Kitaв Sarajь". Bakь, Əli Bajramov kycəsi.

Bytyn ølkələrin proletarlarь, birləşin!

# REVOLYSIJA VƏ QULTURA

JANVAR 1937

№ 1 (142) NƏŞR ILI 1923

Azərbajçan Sovet Jazьcьlarь Ittifaqьnьn ajlьq nəzəri, bədii ədəbijjat, inçə sənət və tənqid zurnalь

*ONYCIL BUNDAN ƏVVƏL PROLETAR REVOLYSIJASЬ DAHISI, DYNJA ƏMƏKCILƏRININ RƏHBƏR VƏ MYƏLLIMI VLADIMIR ILIC LENIN ØLMYŞDYR. LENININ VƏSIJJƏTLƏRININ HƏJATA KECIRILMƏSI ØLKƏMIZDƏ SOSIALIZMIN ƢALIBIJJƏTINI TƏ'MIN ETMIŞDIR. LENININ IŞI BYTYN DYNJADA ƢALIB GƏLƏÇƏKDIR.*

## LENIN

*(Azərbajçan aşьqlarьnьn Lenin haqqьnda jazdьqlarь şeirlərdən)*

Əzəl başdan joldaş Lenin jazdь fərman qьrmьzь
Xəstə ycyn şəfa buldu dərdə dərman qьrmьzь
Əlbir oldu fəhlə, kəndli başda qommunist firqəsi
Qaldьrdьlar al bajraqь oldu əl'an qьrmьzь.

Abdullahьm nəzmə cəkdi vəsf elədi dilində
Qьzьl ordu jyz jaşasьn leninizm jolunda.
Arzьm budur bu inqilab doqsun Şərqin elində
Azad olsun o məzlumlar, olsun çahan qьrmьzь.

*S. Abdulla*

Bu jolda coq joldaş cəkildi dara,
Lenin rəhbər oldu, elədi cara.
Şura çymhurijjətin etdi aşkara.
Aralarda qili-qallar ojnadь.

Gөtyryldy qəzəb, boşlandь darlar,
Verildi kəndlijə çəm olan jerlər.
Jaşasьn şuralar, həmi rəhbərlər.
Boş qalan butaqlar, dallar ojnadь.

*Şair Vəli*

Məzlum millətləri azad ejlədin,
Qojdun bu çahanda nişana, Lenin!
Jeni jaşajьşь içad ejlədin,
Verdin əski gyny tufana, Lenin!

Ƣyncə kibi coq-coq məktəb acьldь,
Sərraflar bulundu, gevhər secildi.
Ƣəm, qyssə əskildi, nəş'ə sacьldь
Əvvəllər aqlajan insana, Lenin!

*Aşьq Səfdər*

Şagirdin Stalin joldaş
Qurubdur devranь gøzəl.
Əmr verir, tədbir gөryr
Qurur bu dynjanь gøzəl.
Qanunu, qət'naməsi,
Hər hөkmy, fərmanь gøzəl.
Anasь tək doqubdur
Bir belə insanь gøzəl.
Şuralarьn baqcasьnda
Dønybdyr bir gylə, Lenin.

*Aşьq Əli*



**Lenin bajraqь ilə biz Oqtjabr revolysijasь uqrunda aparьlan mybarəzələrdə qalib cьqdьq.**

**Lenin bajraqь ilə biz sosializm quruluşu jolundakь mybarəzələrdə qət'i myvəffəqijjətlərə catdьq.**

**Bu bajraq ilə də biz bytyn dynjada proletar revolysijasьnьn qələbəsinə cataçaqьz.**

JAŞASЬN LENINIZM

**I. STALIN.**

# SABIR

«...Bu, qapitalist ɵlkələrində millionlarla namuslu adamьn həsrətini cəkdiji və cəkməkdə olduqu şejin SSRI-da artьq həjata kecirildijinə şəhadət edən bir doqument olaçaqdьr». (Gurultulu alqьşlar.) *(Stalin. Ymum İttifaq VIII Fovqəl'adə Sovetlər Qurultajьnda etdiji mə'ruzədən.)*

Sosialist realizminin ajrьlmaz bir hissəsi olan revolysion romantizmin nə olduqunu bilməjənlər «fajdalь xylja»nьn nədən ibarət olduqunu təsəvvyr edə bilməzlər. Bu, jaradьcь ycyn o qədər lazьmlь bir şejdir ki, zatən onsuz həqiqi jaradьcьlьq ola bilməz. Lenin «ən çiddi elim ycyn də fantazijanьn rolunu inkar etmək olmaz»[1] dejərək, diqqətləri Pisarevin «iş ycyn təkan olan fajdalь xylja ilə boş xyljapərəstlik haqqьnda» olan fikrinə çəlb etdirir. Lenin başqa bir jerdə, daha doqrusu «Nə etməli» adlь əsərində bir daha bu məsələ yzərinə qajьdaraq, «xijal bəsləmək gərək» dejə, Pisarevin fikrini gɵstərən bu sitatь alьr:

> «Nifaq var, nifaq var. Mənim xijalьm hadisələrin təbii gedişini ɵtyb kecə də bilər, jainki, bysbytyn kənar jol tutaraq, hadisələrin hec bir təbii gedişi hec bir zaman vara bilməjən səmtə də gedə bilər. Birinçi təqdirdə xijal hec bir zijan verməjir; o hətta əməkci adamьn energijasьna jardьm edib qyvvətləndirə bilər... Bu çyr xijallarda işci qyvvəsini pozqunlaşdьran, jainki ifliç edən hec bir şej joqdur. Hətta tamamilə əksinə. Əgər insan belə xijal etmək iste'dadьndan bysbytyn məhrum olsajdь, əgər o hərdən bir qabaqa qacmaqь və əlinin altьnda jeniçə əmələ gəlməjə başlajan jaradьlьşьn bytɵv və tamamlaşmьş mənzərəsini xijal gɵzy ilə sejr etməji baçarmasajdь, o zaman bilməjirəm—insanь inçəsənət, elim və praqtik həjat sahəsində geniş və çanjoran işləri başlamaqa və axьra vardьrmaqa nə kibi təhrik ediçi bir səbəb vadar edə bilərdi...»

Nihajət Lenin ɵzyndən ilavə edir:

> «İştə bu çyr xijallardan, təəssyf ki, bizim hərəkatьmьzda coq azdьr. Bunun da taqsьrь hamьdan artьq, ɵz ajьqlьqь ilə, «qonqret»-ə «jaqьnlьqь ilə» loqalanan leqal tənqid və qejri-leqal «qujruqculuq» nymajəndələrinin bojnuna dyşyr»[2].

Ɵlməz sənətkarlar hər zaman belə bir «fajdalь fantazijaja» qapьlьb kecmişi ɵjrənib, hazьra əsaslanьb, gələçəji gɵrənlər və tərənnym edənlərdir. Jalnьz hazьrь gɵryb onun adi fotosunu cьqaranlar, qopjə edənlər belə bir məhdudijjətdən qurtulmajanlar, hadisəjə «nejtral» janaşanlar jaradьcь adьnь daşьmaqa lajiq dejildirlər.

Qoncarovun fikrinçə «sənət aləmində əqlin fantazija ilə ittifaqь olmalьdьr». Başqa bir jerdə də iqrar edir ki, «mən hər şejdən artьq fantazija ilə jaşadьm və jazdьm—bunsuz qələmim, qyvvəsi az və tə'sirsiz olur».

Ona gɵrə də Sabir haqqьnda, jalnьz gɵrdyjyny tənqid edəndir dejən olarsa, Sabiri hecə cьqaraçaqьnь əvvəldən anlasьn: bu, məntiqi çəhətçə də doqru dejildir, cynki zəmanəsindən razь olmajan Sabir sɵz joq ki, onun daqьlmasьnь arzь edir. Daqьlan xərabələr yzərində də bir «bajquş» olmaq joq, jeni dynja gɵrmək istəjir. Bu iddianь Sabirin bytyn jaradьcьlьqь isbat etdiji kibi, bu məsələjə həsr olunmuş ajrь-ajrь parcalarь da vardьr. O, Puşkinlə birlikdə «xyljalar! xyljalar!! Nərədə sizin şirinlijiniz» dejə, jazьr ki:

> «Əçəb kəşfi-niqab etməzmi jarim ruji-zibadən?
> Zijalandьrmaz afaqi fruqi-aləm aradən
> Nə vaqt ol sybhi-safim ajrьlьr bəs lejli-jəldadən
> «Jolunda min həqiqət verdijim bir şanlь rə'jadən
> Qalan pişaniji ɵmrymdə bir nabud kovkəbdir».[3]

Qismən sentimental olan jaradьçьlar, objeqtiv varlьqьn qanunlarьna gərək şyurlu, gərəksə «ɵzy bilmədən» biliş jetirmək qabilijjətinə malikdirlər. Onlar hər şejdən əvvəl təbiətin joq, birinçi novbədə çəmijjətin, içtimai myhitin ona verdiji içtimai sifariş nətiçəsində, belə bir objeqtiv tapşьrьqьn tə'siri altьnda qəlbində olanlarь qələm vasitəsilə kaqьza kɵcyryrlər. Bu sifarişləri jerinə jetirənin bilişi, iste'dadь və fantazijasь bir-birinə qarьşaraq inkişaf edir və ədəbi məhsul kibi ortaja cьqьr.

Təbiət e'tibarь ilə elmə «xor gɵzlə» baqan jaradьçьlar «nə ycyn jazьram» sualьna da gɵrynyşy e'tibarь ilə «eqoistçəsinə» çavab verirlər. Məsələn, onlardan bir necəsi: Puşkin jaradьçьlьqьnda «nəjinsə təşnəsi olan ruhun mybhəm diləjini» gɵryrdy.

Cajqovski dejir ki:

> «Jaqьnь, jamanьm jazьram, ançaq bir şej şybhəsizdir: mən icərimdə olan qarşьsьna durulmajaçaq bir təhrikin nətiçəsində jazьram, mən musiqi dilində danьşьram, cynki demək ycyn məndə hər zaman bir şej vardьr».

Bethoven «nə ycyn jazьram» sualьna belə çavab verir: «qəlbdə olan mejdana cьqarьlmalьdьr, onun ycyn də jazьram».

Sabir isə bu suala sadəçə, şairəm dejə çavab verir, ançaq neçə şair:

> «Şairəm cynki vəzifəm budur əş'ar jazьm;
> Gɵrdyjym nijky-bədi ejləjim izhar jazьm;
> Gyny parlaq, gyпyzy aq, geçəni tar jazьm,
> Bədi bəd, əjrini əjri, dyzy hamvar jazьm». və i.a.

Bɵjyk proletar jazьcьsь Qorki məsələjə daha jaqьn gələrək belə çavab verir: «joruçu joqsul həjatьn yzərimə olan təzjiqi nətiçəsində məndə o qədər coq təəssyrat jaranmьşdьr ki, jazmaja bilməzdim».

Biz burada içtimai myhitin tə'sirini acьq-acьqьna gɵryryk. Jaradьçьlarьn xysusijjəti bir də bununla izah olunur ki, bu «təəssyrat» nətiçəsində onlar jazmaja bilməjirlər. Misalь nə qədər elmi olmasada Ibsen məktublarьnьn birində zərifanə bir surətdə qejd edir ki: «qarşьmda, staqanьn icərisində bir əqrəb vardь. O capalajьr, getdikçə boqulmaqa başlajьrdь. Mən onu diqqətlə sejr edirdim, nihajət,

[1] Lenin, Əsərləri XII çild, səh. 339 (rusça).

[2] Lenin, Əsərləri, IV çild, səh. 492—493.

[3] Son iki misra' Çovdətindir. Sabir onu təxmis etmişdir.